Qisas qiyamətə qalmadı

"Qisas qiyamətə qalmadı" kitabı (Ə.Niftiyev "Elm vəTəhsil" nəşriyyatı, 2020-ci il.) III dərəcəli "Vətənə xidmətə görə" ordenli, Masallı RayonAğsaqqallar Şurasının sədri, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, "Qızıl qələm" və H.B.Zərdabi media mükafatları laureatı Ələşrəf Niftiyevin oxucularla on üçüncü görüşüdür.

Məlumat üçün bildirək ki, tanınmış ədib Ələşrəf Niftiyev "Ömür yolu - nur yolu", "Oğul, bu Qurana and iç ki...", "Kiçiklərə, böyüklərə və hər kəsə", "Haqqın gücü", "Həyatımın həqiqətləri", "Hər kəs qədrini yaşar", "Vur-tut bu dünyada bir ömrümüz var", "Seçilmiş hekayələr", "Uşaqlar üçün hekayələr", "Yaxşılığa qoyulmayıb tərəzi", "Gərək sevəsən, sevilməsən və sevindirəsən", "Demədiklərim və yazmadıqlarımla görüşənədək", "Qisas qiyamətə qalmadı" kitablarının müəllifidir.

Tanınmış nasir və publisistin "Qisas qiyamətə qalmadı" kitabında yaradıcılığında əsas mövzulardan olan Azərbaycan-Ermənistan-Qarabağ münaqişəsi, ərazi bütövlüyümüzün qorunması, və torpaqlarımızın işğaldan azad edilməsində Milli ordumuzun igidlik və qəhrəmanlığından söhbət açılır. Həmçinin burada erməni saxtakarlığı və vəhşilikləri barədə epizodlara geniş yer ayrılır. Nəhayət, xalqımızın birliyinə söykənən siyasi-hərbi strategiyamızın nəticəsində 30 ildən sonra qazanılan Zəfər qələbəsinin yaşantılarından bəhs edilir: Ərazi və torpaqlarımızın işğaldan azad olunması üçün cəmi 44 gün kifayət etdi. Möhtəşəm qələbəmiz sayəsində xalqımızın Qarabağ həsrətinə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi-hərbi strategiyası, xalqımızın birliyi və milli ordumuzun əfsanəvi igidliyi ilə son qoyuldu. Bununla bağlı üçtərəfli saziş bağlanmaqla düşmən tərəfi kapitulyasiya ilə razılaşmalı oldu. Müəllif ötən ilin 10 dekabrında bu qələbə münasibəti ilə Azadlıq meydanında təntənəli paradın sevinc və göz yaşları şəraitində silinməz iz buraxan mənəvi gücündən ruhlanaraq Birinci Qarabağ savaşından bu günədək məlum hadisələrin şahidi tək hər vaxt olduğu kimi kitablarında əsas yer tutan Azərbaycanımızın haqq işi, erməni vəhşiləri və quldurları tərəfindən xalqımızın başına gətirilənlər barədə fikir və mülahizələrini bölüşdürməyə qərar verir. Həmçinin yazıçı bu temasda illərdən bəri rast gəldiyi və iş əsnasında üzləşdiyi faktları dilə gətirir. Xüsusilə qələbəmizin rəhni, səbəb və nəticələrindən xidmətləri olmuş igidlərimizin xatırlanması, istər Birinci savaş, istərsə də Vətən müharibəsi dövründə qazanılan şücaətlərdə şəhidlərimizin və döyüşçülərimizin, məcburi köçkün və qaçqınların çətin anlarında himayəsi ilə bağlı bu kitabda canlı epizodlardan söz açılır.

Kitaba ön sözündə yazarın yuxarıdakı fikirləri və mülahizələri oxucu ilə səmimi bölüşmə hisslərində qütb uzlaşmasını təmin edir. Erməni işğalçıları tərəfindən törədilən qəddarlıqlara qətiyyətli söz tutumu təsirli fakt və epizodlarla oxucuya çatdırılır. Müəllif igid və mətin döyüşçülərimizlə vətən sevgisi sınağında qəlbən böyüyür və uğurlarımızla fəxr edir. Fəlakətlərə və məhrumiyyətlərə düçar olmuş, taleyin hökmü ilə doğma torpaqlarından didərgin düşmüş köçkün və qaçqınların, döyüşlərdə Vətən naminə canlarından keçmiş şəhid və qazilərin, onların ailələrinin dərdinə şərik çıxır. İctimaiyyəti və oxucunu da bu amala səsləyir. Elə bu səbəbdən kitab böyük maraq doğurur, səhifələrə çıxarılan epizodların sonunu səbirsizliklə gözləyir və bədii təsvir vasitələrinə, söz və ifadə sərrastlığına, işlənmə üslublarına qiymət verir.



Yazar ön sözündə bildirir ki, əlli illik yaradıcılıq yolunda befaktual, əsrlər boyu xalqımızı narahat edən məkrlə erməni xisləti nəticəsində millətimizə qarşı törədilmiş terror aktları və qətliamlar hərbi cinayətlərin, qeyri-insani vəhşi rəftarın, ikiüzlülük, saxtakarlıq, həyasızlıq və abırsızlıq qeyri-əxlaqi xüsusiyyətlərinə dair tarixi faktları, cinayət epizodlarını qətiyyətlə pisləyir. İndiki halda vətəndaş və azərbaycanlı kimi qəlb ağrısı ilə yada salıb qələmə almaqdan vacib bir missiya olmadığı zəruriyyətini önə çəkir.

Xatirə və müşahidələrinin "İnanmaq çətin idi" bölməsində yer alması Xalq şairimiz Zəlimxan Yaqubun Almaniyanın Münhen şəhər xəstəxanasında ölümlə çarpışan anlarda yazdığı

Görən Qarabağın qayıtmağını,
Mən öz gözlərimlə görəcəyəmmi?
Şuşa qalasını bir qalib kimi,
Hayqıra-hayqıra görəcəyəmmi?

sualı ilə çoxlarının böyük inamı olsa da, bəzi bədgüman fikirləşənlə: sanki özü də istəmədən əcəl yatağında son günlərini yaşadığından həsrətə yetməyəcəyini kədərlə qeyd edir. Və çox haqlı olaraq yazarımız kitabın girişindəki bu çətin inama elə şairin digər şeiri yerindəcə qətiyyətli çağırışı əks etdirən sətirlərə yer verir:

Yaşlı yanaqların quruyan nəmi,
Qəmli ürəklərin silinən qəmi,
Bütün könüllərin gücü, məlhəmi,
Qələbə! Qələbə! Ancaq Qələbə!

"Mənfur erməni xisləti" başlığı ilə verilən təsvirdə nəmərd qonşumuz olan ermənilərin tarix boyu tayfalarla köçkün tərzi yaşamasına diqqət çəkilir. Dünyanın tanınmış şəxsiyyətləri ermənilərin satqın və saxtakar cinaları hər birinin üstündə tətbiq edib çal-çağırla, fit və musiqi sədaları altında həyata keçirərmişlər. Qızının yaşıdlarını əvvəl ayağından güllə ilə vuraraq yerə yıxıb, sonra onlardan qalxmağı tələb edərək, qulaq və burunlarını, qollarını kəsdirəsək, lüt vəziyyətə saldırıb məsxərəyə qoyarmışlar. İşə baxın, faşist cəlladın belindən gələn azyaşlı qızı bu səhnələrə dözməyib sonda bərkdən qışqıraraq əllərilə dəhşətdən gözlərini qapayıb dəlicəsinə qışqıraraq: "Ata, bəsdir, dözə bilmirəm, saxla, yazıqdırlar..." (Səh.35-36).

Müəllif gətirdiyi müqayisənin o biri tərəfini də real şəkildə təsvir edir: "Erməni faşistləri bir ara irəliləyərək azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmə, soyqırım və faciələrdə, toqquşmalarda və Qarabağ müharibələrində, hətta təslim olduqdan sonra belə işğal etdikləri yerlərdən qaçarkən oralara od vurur, evlərini yandırır, təbəti korlayır, kommunikasiyaları sıradan çıxarır, tarixi abidələrimizi və dini ibadətgahlarımızı murdarlayıb təkrar bəşəri və müharibə cinayətləri törətmişlər".

Müəllif sonrakı səhifələrdə 1993-cü ilin payızında ümummilli lider Heydər Əliyevin xalqa müraciətinə cavab olaraq ölkəmizin hər yerində olduğu kimi Masallıda da bu çağırışa qoşulmaq sahəsində görülən işləri "Vətən sevgisinə qoşulanlar" başlığı ilə ehatəli tərzdə qələmə alır. Həmin dövrdə rayonun ziyalıları və ağsaqqallarının vətənin müdafiəsi və hərbi vətənpərvərlik işində maarifləndirmə, təbliğat-təşviqat tədbirlərində, habelə orduya hamilikdə fəal iştirak edənləri bir-bir xatırlayır. Daha sonrakı səhifələrdə ötən ilin 27 sentyabrından azğın düşmənin təxribat hərəkətlərinə əks cavablarımızla başlanmış Vətən müharibəsində igidlikle vuruşaraq şəhidlik zirvəsinə ucalmış həmyerlilərimizi dilə gətirir. Döyüşlərdə xüsusi fəallıq göstərmiş və xidmətləri dövlət başçısı tərəfindən yüksək dəyərləndirilən qəhrəman oğullarımıza da geniş yer ayrılır. RİH başçısı aparatının, imkanlı şəxslərin və xeyriyyəçilərin döyüşçü və şəhid ailələrinə, hərbi hissələrə yardım, diqqət və qayğı göstərməsi məsələlərinə də yazımda ətraflı toxunulur.

Artıq tarixə çevirilmiş masalluların birinci Qarabağ savaşı zamanı bir vətənpərvərlik təşəbbüsü barədə ,də söhbət açmaq yerinə düşər. Belə ki, həmin illərdə RİH nəzdində yaradılmış "Qələbə" büdcədənkənar fondunun əsasnaməsmnə uyğun olaraq fərqlənən döyüşçülərə, hərbi hissələrə diplom və hədiyyələr, yardımların təşkili faktlarından da yazıda misallar çəkilir.

Yeri gəlmişkən qeyd edim ki, kitabın səhifələrini vərəqlədikcə oxucu açıq-aydın hiss edir ki, bu sətirlərin müəllifi göstərdiyi xüsusatları necə peşəkarlıqla, bələdçiliklə, geniş dünyagörüşü çərçivəsində oxucunun diqqətinə çatdırır. Bu ondan irəli gəlir ki, tanınmış şəxsiyyət, yaradıcı insan Ələşrəf Niftiyevin elə qələmindən çıxan bütün yazıları müdrik düşüncəyə, xeyirxahlığa, dərin Vətən sevgisinə söykənərək ölkəmizin bütün sahələrdəki uğurlarına və dövlətçiliyimizə vurğunluqla sədaqətlilik xidmət nümunəsi əsasında gənc nmilli-mənəvi dəyərlərimiz əsasında tərbiyə etmək işinə xidmət edir. Elə Vətən müharibəsindəki qələbəmiz də azərbaycançılıq ideologiyası baxımından dərin qürur duyuları yeni tariximizin şanlı səhifələri hesab edilməlidir.

Bu isə təsadüfi deyil, müəllifin vaxtilə işlədiyi məsul vəzifələrdə qazandığı təcrübə, keçdiyi mənalı ömür yolunda əldə etdiyi səriştənin, bacarığın və savadının, geniş erudusiyasının bəhrəsidir.

Əvvəllərə yaradıcılığında daşıdığı vəzifələrlə bağlı gənclərin hərbi vətənpərvərlik tərbiyəsi prioritet sahə sayılsa da, bilavasitə bu mövzuya bağlılıq, vurğunluq və aktuallığı seçimi onda 1992-ci ilin dekabrında ulu öndər Heydər Əliyevlə rayon rəhbərlərindən biri kim ordu quruculuğu, cəbhədə yaranmış mürəkkəb şərait, qarşıda duran strateji əhəmiyyətli Horadiz əməliyyatı və digər təxirəsalınmaz vəzifələrlə əlaqədar müdrik rəhbər və beynəlxalq aləmdə yaxşı tanınan dövlət xadimi ilə yeddi dəqiqəlik telefon bağlantısından sonra bu mövzuda bir daha geniş və ehatəli yazıların meydana gəlməs zərurəti yaratmışdır. Yeri gəlmişkən kitabda elə o dövrdə baş vermiş epizodlardan da geniş xatirələr sadalanıb səhifələrdə yer almışdır.

Göstərilənlərdən əlavə vaxtilə uşaqları qorumaq, sülhə çağırış və müharibəyə yox demək amalı ilə azəri qızı Ayan Əlizadənin Türkiyə dövlətinin başçısı Rəcəb Tayyib Ərdoğanla görüş səhnəsindən kitabdakı bir epizodu yazıma gətirirəm: "Sizdən və dünya dövlətləri liderlərindən rica edirəm, dünyanı qoruyun, uşaqları qanlı müharibələrdən qoruyun, susmayın. Bu dünya, bu həyat uşaqlarla daha gözəldir. Lütfən gözəlliyi qoruyun". Türkiyə lideri Ayanı qucaqlayaraq kövrək hisslərini saxlaya bilməmişdi. Bu mənada Vətən müharibəsi dövründə Azərbaycana mənəvi dayaq dəstəkləmək təmasında müəllif "iki dövlət, bir millət" məsələlərinə də geniş diqqət yetirir.

Kitabda həmçinin rayonda məskunlaşmış köçkünlərin həyatından baş vermiş bir neçə olaylar da qələmə alınıb. Bunların yalnız birini bu təhlili yazıma əlavə edirəm. Şuşa şəhərindən olan Rafiq Abbasov xatırlayır ki, 1992-ci ildən Masallı şəhərində ailəvi məskunlaşıblar. Son 30 ildə heç kəsə dəmədiyim iki sirri indi - Şuşanın xilası günündə sizə açıqlayıram. İllərdir anasından və ailəsindən gizli götürdüyü dəsmala bükülmüş köhnə paslı açarları cibindən çıxarıb bu yazının müəllifinə uzadaraq heyrətlə danışıb:

- Bunlar mənə anamdan (Masallıda dünyasını dəyişib) əmanətdir. Evdəkilər bu günədək xəbərsizdir... Şuşadakı evimizin, qərajımızın və s. açarlarıdır. Həmin gün göz yaşlarımızla doğma evimizi tərk edərkən elə sanırdıq ki, tezliklə geriyə - evimizə qayıdacağıq. Anamdan xəlvəti olaraq gizlətdiyim açarlar barədə indiyədək heç kəsə bir kəlmə belə bildirməmişdim. İndi isə deyirəm ki, açarlar itməyib, onları anamın əmanəti kimi qoruyub saxlamışam. Ana, ruhun şad olsun! Bütövlükdə Qarabağ düyünü artıq açıldı. Pas içində saxladığımız kilidlərin, açarların ömrü bitdi. Yaxın müddətdə oralar yenidən laləzara dönəcək, geniş və yaraşıqlı binalar, evlər tikiləcək və əvvəlki kimi füsünkar, doğma Şuşamız bizləri ağuşuna alacaq.

- İkinci sirrim: uşaqlıq illərindən özümlə Şuşadan gətirdiyim yadigar qalan bu bayraqdır. Zəfər paradı günü aile üzvlərimə birgə bu bayrağı çıxarıb sevinc hisslərimizi xalqımızla bölüşdük. Nə xoş ki, illərdir utana-utana, çəkinə-çəkinə, "köçkünük" deyə-deyə, nəhayət bu gün ucadan səsləndirə bilərik: "Biz artıq köçkün deyilik. Doğma Şuşamız azad olundu, Cıdır düzü, İsa bulağı səbirsizliklə bizləri gözləyir"...

Kitabın son bölümündə qeyd edildiyi kimi ərazi bütövlüyümüz uğrunda aparılan hər iki döyüşdə çoxdankı nisgilimizə xalqımızın iradəsi və birliyi sayəsində nida işarəsi qoyuldu, ölkəmiz üçün yeni dövr - quruculuq dövrü başladı. Qarabağı dünyanın ən görməli, gəzməli guşəsinə çevirməklə rahat və firavan yaşamağa başlayacağıq.

Akif AĞAYEV